# TOPÇUBAŞOV BEYNƏLXALQ ARBİTRAJI

# CAVABDEH MEMORANDUMU

## Cavabdeh tərəf "Peşəkar Tikinti" MMC

## 16C

## 27.03.2024

# MÜNDƏRİCAT

Faktların təqdimatı ..................................................................................................................4

Arqumentlərin xülasəsi ..........................................................................................................5

Arqumentlər ............................................................................................................................6

I. Tərəflər arasında imzalanmış Podrat müqaviləsi və Zaminlik müqaviləsindən yaranan mübahisələr üzrə işə arbitrajda baxıla bilməz. ..........................................................................6

II. Tərəflər arasında bağlanmış Podrat Müqaviləsinə əsasən İddiaçının öhdəliyin icrasının gecikdirilməsinə görə Cavabdehin məsuliyyət daşıyaraq zərərin əvəzini ödəməsi ilə bağlı tələbi əsassızdır. ..........................................................................................................8

A. Cavabdeh öhdəliyin icrasını müqaviləyə uyğun həyata keçirdiyi üçün İddiaçı həm real zərərin, həm də əldən çıxmış faydanın əvəzini tələb etməyə haqlı deyil. ..........................9

B. Podrat Müqaviləsi üzrə bildirişlərin təqdim olunmaması halı İddiaçının zərərin əvəzini tələb etmək hüququndan məhrum olmasına əsas verir. ..................................................12

C. Cavabdeh Podrat Müqaviləsi üzrə şərtləşdirilmiş şəkildə öhdəliyini yerinə yetirdiyinə görə İddiaçı ödənilmiş avansın geri qaytarılmasını tələb edə bilməz. ............................14

III. Tərəflər arasında bağlanılan Alğı-satqı müqaviləsi çərçivə müqaviləsi olduğuna görə hər hansı öhdəlik nəzərdə tutulmamışdır, bu səbəbdən də İddiaçı Cavabdehdən əldən çıxmış faydanın dəyərini ödəməsini tələb etməyə haqlı deyildir. ..................................................16

IV. Hazırki mübahisə üzrə pul öhdəliyi mövcud olmadığından, həmçinin olduğu təqdirdə belə, Cavabdeh tərəfindən icra olunduğuna görə Mərkəzi Bankın uçot faiz dərəcələri tətbiq oluna bilməz. ........................................................................................................................18

Tələblər ................................................................................................................................20

Arbitraja müraciət ..................................................................................................................22

# İstifadə olunmuş mənbələr

## I. Milli qanunvericilik


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi, 1999 (5.3; 6.2; 21; 327.1; 347.4; 347.7; 390.1; 425.1; 432; 436; 442; 443.1; 445.1; 445.2.1; 550.1; 560.1; 560.3.4; 759.1; 759.2; 762.2)
2. "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu, 1999, mad. 7
3. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 40-11
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Mülki Məcəlləsinin 399.3, 399.4,445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" Plenum Qərarı (24.12.2014)
5. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 6.2, 390.1 və 390.5-ci maddələrinin şərh edilməsinə dair" Plenum Qərarı (18.12.2023)
6. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 18 iyul 2022-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Qərarı (26.04.2023)
7. Azərbaycan Repsublikası Konstitusiya Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair" Qərarı (09.07.2009)
8. Azərbaycan Respublikasının Ali Məhkəməsinin "Mülki qanunvericiliyin lizinq müqaviləsinə dair münasibətləri tənzimləyən bəzi normalarının tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsinə dair" Qərardadı (04.06.2021)
9. "Əsaslı tikintidə podrat müqavilələri haqqında" Qaydalar, 1994 (2.3)

# II. Xarici mənbələr


1. UNCITRAL Arbitration Rules, 2021
2. “Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında” BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyası (2)
3. “Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında” BMT Konvensiyası, 1980, mad. 74
4. Beynəlxalq Kommersiya Müqavilələrinin UNIDROIT Prinsipləri, 2016, (1.8; 5.1.6)
5. Rusiya Mülki Məcəlləsi, 1994, mad. 429.1
6. ICC case No 4367
7. Case No 132/2004 (Russian seller v. Turkey buyer) (2005)


# III. Doktrinal mənbələr


1. Digest of Case Law on the United Nations Convention on Contracts for the International Sale of Goods, (2016)
2. Beynəlxalq Kommersiya Müqavilələrinin UNIDROIT Prinsiplərinin Kommentariyası, (2022)
3. European Commission, Explanatory Note – Framework Agreements – Classic Directive (16.02.2016)
4. Margaret L. Moses, Principles and Practice of International Commercial Arbitration 18 (2008)
5. Luiz Gustavo Meira Moser, Arbitration Clause and Acceptance: The Role of Silence and Fair Dealing in L'Aiglon S.A V. Têxtil União S.A. - A Brazilian Experience, 11 Vindobona Journal of International Commercial Law and Arbitration 305, 305 (2007)
6. B. Əsədov, Azərbaycan Respublikası Mülki Məcəlləsinin Elmi-Praktiki Kommentariyası, (2017)
7. İ. Əsgərov, Azərbaycan Respublikası Mülki Məcəlləsinin elmi-praktik kommentariyası, I cild (2014)
8. İ. Əsgərov, Azərbaycan Respublikası Mülki Məcəlləsinin elmi-praktik kommentariyası, II cild (2015)
9. S. Süleymanlı, Mülki Hüququn Əsasları, (2019)
10. F. Mehdiyev, Hüquq Nəzəriyyəsi, (2018)
11. A. Cəfərquliyev, *UNIDROIT Prinsiplərinin beynəlxalq kommersiya müqavilələrinə tətbiqi və ortaya çıxan problemlər,* (2020)

# Faktların təqdimatı

1. İddiaçı  “Atlantida Hotel” Şirkəti (bundan sonra “İddiaçı”) ilə Cavabdeh “Peşəkar Tikinti” MMC (bundan sonra “Cavabdeh”) arasında 2019-cu il yanvar ayında ilkin əlaqələr yaranmış, 7 may 2019-cu ildə Cavabdeh ona bazar qiymətlərindən təxminən 20 faiz daha ucuz qiymətə sifarişi yerinə yetirməyi təklif etmiş, 10 iyul 2019-cu il tarixində isə Tərəflər arasında Podrat müqaviləsi bağlanmışdır.
2. 10 avqust 2019-cu il tarixində Cavabdeh və İddiaçı arasında alğı-satqı müqaviləsi, o cümlədən Cavabdehin tək təsisçisi ilə İddiaçı və Cavabdeh arasında bağlanmış Zaminlik Müqaviləsi imzalanmışdır. Zaminlik müqaviləsinə əsasən, Cavabdehin təsisçisi olan Əliyev Əhməd Vəli oğlu, yəni zamin Cavabdehin bütün öhdəliklərinin icrasına təminat vermişdir.
3. Alğı-satqı müqaviləsi ilə müəyyən edilmişdir ki, Cavabdeh İddiaçıdan otelin tikintisində istifadə edilməsi məqsədilə idxal edilməli olan 5.000.000 ABŞ dolları qiymətində olan xüsusi ölçmə cihazları, havalandırma sistemi, elektrik avadanlıqları və digər malları daxil olmaqla bütün malları almalıdır..
4. Alğı-satqı müqaviləsindəki öhdəliyinə uyğun olaraq, Cavabdeh 15 oktyabr 2019-cu il tarixində Alğı-satqı müqaviləsi üzrə 100 000 (yüz min) ABŞ dolları dəyərində mal sifariş etmiş və ödənişi həyata keçirmiş, İddiaçı isə növbəti 3 il ərzində Cavabdehə hər hansı tələb və ya narazılıq bildirən heç bir yazılı bildiriş, iddia və ya elektron poçt məktubu göndərməmişdir.
5. Cavabdeh Podrat müqaviləsində nəzərdə tutulan tikintinin 1-ci mərhələsini 10 iyul 2021-ci ildə tamamlayıb, İddiaçıya 2 000 000 (iki milyon) ABŞ dolları dəyərində işləri gördüyünə dair hesabat təqdim etmişdir.
6. 15 may 2022-ci ildə İddiaçı elektron poçt vasitəsilə işlərin heç 10 faizinin tamamlanmaması, gecikməyə görə şirkətinə 1.000.000 ABŞ dolları həcmində zərər dəyməsi və görülmüş işlərdə artıq heç bir marağı qalmamasını əsas gətirərək Cavabdehdən ödədiyi avans ödənişini tam həcmdə qaytarmağı xahiş etmişdir. Buna cavab olaraq 25 May 2022-ci il tarixində Cavabdeh İddiaçıya elektron poçt məktubu göndərmiş və təklif etmişdir ki, vurulmuş zərərin artıq görülmüş işlərin təhvil-təslimi zamanı müzakirə edib razılığa gəlsinlər.

# Arqumentlərin xülasəsi

I. Tərəflər arasında imzalanmış Podrat müqaviləsi və Zaminlik müqaviləsindən yaranan mübahisələr üzrə işə arbitrajda baxıla bilməz.

II. Cavabdeh öhdəliyin icrasını müqaviləyə uyğun həyata keçirdiyi üçün İddiaçı həm real zərərin, həm də əldən çıxmış faydanın əvəzini tələb etməyə haqlı deyil.

III. Podrat Müqaviləsi üzrə bildirişlərin təqdim olunmaması halı İddiaçının zərərin əvəzini tələb etmək hüququndan məhrum olmasına əsas verir.

IV. Cavabdeh Podrat Müqaviləsi üzrə şərtləşdirilmiş şəkildə öhdəliyini yerinə yetirdiyinə görə İddiaçı ödənilmiş avansın geri qaytarılmasını tələb edə bilməz.

V. Tərəflər arasında bağlanılan Alğı-satqı müqaviləsi çərçivə müqaviləsi olduğuna görə hər hansı öhdəlik nəzərdə tutulmamışdır, bu səbəbdən də İddiaçı Cavabdehdən əldən çıxmış faydanın dəyərini ödəməsini tələb etməyə haqlı deyildir.

VI. Hazırki mübahisə üzrə pul öhdəliyi mövcud olmadığından, həmçinin olduğu təqdirdə belə, Cavabdeh tərəfindən icra olunduğuna görə Mərkəzi Bankın uçot faiz dərəcələri tətbiq oluna bilməz.

VII. İddiaçının arbitraj və hüquqşünas xərclərinin Cavabdeh tərəfindən ödənilməsi tələbi hüquqi əsasa malik deyil.

# Arqumentlər

**I. Tərəflər arasında imzalanmış Podrat müqaviləsi və Zaminlik müqaviləsindən yaranan mübahisələr üzrə işə arbitrajda baxıla bilməz.**

1. İddiaçı tərəf bildirmişdir ki, İddiaçının Cavabdehə göndərdiyi 5 avqust 2019-cu il tarixli "Alğı-satqı və zaminlik müqavilələrinin layihələri" mövzusunda olan elektron poçt məktubuna əsasən, arbitraj bəndi Zaminlik müqaviləsinə də tətbiq olunmalıdır. İddiaçı bunu belə əsaslandırmışdır ki, bu elektron poçt məktubunun mövzusu həm Zaminlik, həm də Alğı-satqı müqaviləsini əhatə etdiyindən, layihəyə arbitraj bəndinin əlavə olunması əsaslandırılarkən layihə ümumi olaraq qiymətləndirildiyindən və Cavabdeh bu poçtda qeyd olunmuş məlumatlara və təkliflərə heç bir etiraz bildirmədiyindən hər iki müqavilədən yaranan mübahisələr arbitraj yolu ilə həll edilə bilər. Lakin qarşı tərəf bu iddianı irəli sürərkən qanunvericiliyin tələblərini və beynəlxalq biznes praktikasını nəzərə almamışdır. Belə ki, Mülki Məcəllənin 409.3-cü maddəsinə əsasən, əgər bu Məcəllədən, işgüzar adətdən və ya tərəflərin əvvəlki işgüzar münasibətlərindən ayrı qayda irəli gəlmirsə, susmaq aksept sayılmır.
2. "Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında" BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasının 2-ci maddəsi arbitraj sazişi ilə bağlı məsələləri tənzimləsə də, susmaq məsələsinə toxunmur. <u>Beynəlxalq ticarət adətlərinə görə isə arbitraj sazişinin mövcudluğu üçün tərəflərin hər birinin açıq iradə ifadəsi olmalıdır.</u>[1] <u>Susmaq yalnız o halda arbitraj sazişinə razılıq verilməsi kimi qəbul edilə bilər ki, tərəf həmin arbitaj sazişinə uyğun hərəkətlər etsin və ya arbitrlərin təyin olunması prosesində aktiv iştirak etsin və bu prosesə öz etirazını bildirməsin.</u>[2] Lakin hazırkı işdə Zamin arbitraj prosesindən öncə arbitraj bəndinə uyğun hərəkətlər etməmişdir və heç bir arbitrın namizədliyini irəli sürməmişdir. Odur ki, Cavabdehin bu məsələyə münasibətdə iradə ifadəsi, yəni niyyəti olmamışdır deyə arbitraj məhkəməsi Zaminlik müqaviləsindən yaranmış mübahisə üzrə işə baxmağa səlahiyyətli deyil. Eyni zamanda İddiaçı tərəf arbitraj bildirişində həmin elektron poçt məktubuna istinad edərək

---

[1] Margaret L. Moses, The Principles and Practice of International Commercial Arbitration 18 (2008)

[2] Luiz Gustavo Meira Moser, *Arbitration Clause and Acceptance: The Role of Silence and Fair Dealing in L'Aiglon S.A V. Têxtil União S.A. - A Brazilian Experience,* 11 Vindobona Journal of International Commercial Law and Arbitration 305, 305 (2007)

arbitrajın Podrat müqaviləsinə tətbiq olunmasını irəli sürüb. Lakin Zaminlik müqaviləsində olduğu kimi burada da tərəfin iradə ifadəsi olmadığından ona arbitraj bəndi şamil edilməməlidir.

3. Bununla yanaşı, doktrinada və beynəlxalq məhkəmə praktikasında belə bir fikir hakimdir ki, Zaminlik müqaviləsi müstəqil bir əqddir və əsas müqavilədə nəzərdə tutulan arbitraj bəndi Zamin üçün məcburi deyil.[3] İddiaçı tərəf qeyd edə bilər ki, Zaminlik müqaviləsinin icrası ilə Zamin əsas müqavilənin tərəfinə çevrilmişdir deyə arbitraj bəndi ona da şamil edilməlidir. Lakin diqqət yetirmək lazımdır ki, arbitraj bəndi hər hansı müqavilənin tərkib hissəsi olsa da, onun özünün müstəqil müqavilə xarakteri var. Dolayısıyla Zaminin Alğı-satqı müqaviləsinin tərəfinə çevrilməsi hələ onun arbitraj sazişinin tərəfi olmağı mənasına gəlmir. Zamin o halda arbitrajın tərəfi ola bilərdi ki, Zaminlik müqaviləsində birbaşa olaraq arbitraja istinad edilərdi.[4] Hazırkı işdə isə arbitraja heç bir istinad yoxdur.

4. İddiaçı tərəf vurğulamışdır ki, Podrat müqaviləsində və Zaminlik müqaviləsində olan mübahisələrin qarşılıqlı razılıq və danışıqlar yolu ilə həll edilməsi barədə müddəalar məhkəməyə və arbitraja müraciət hüququnu məhdudlaşdıra bilər. Qeyd etmək lazımdır ki, Mülki Məcəllənin 390.1-ci maddəsi tərəflərə azad surətdə müqavilələrin məzmununu müəyyənləşdirmək hüququ verir və tərəflər bu hüquqlarından istifadə edərək müqaviləyə belə müddəa əlavə etmişdirlər. Mübahisələrin qarşılıqlı danışıqlar yolu ilə həll edilməsi işgüzar adətlərdə geniş yayılmış qarşılıqlı əməkdaşlıq prinsipinin təzahürü olmaqla məhkəməyə müraciət etməzdən əvvəl daha qısa müddətdə və xərc çəkmədən mübahisənin həll olunmasını nəzərdə tutur. Bu, mübahisələrin məhkəməyəqədər alternativ həlli yoludur və məhkəməyə müraciət hüququnun məhdudlaşdırılması və ya bu hüquqdan imtina kimi qiymətləndirilə bilməz. Arbitraj məhkəməsinə müraciət etmək hüququ isə tərəflərin xüsusi tələblər və prosedur əsasında əldə etdikləri hüquqdur. Yuxarıda göstərilən səbəblərdən tərəflərin Podrat və Zaminlik müqavilələrindən yaranan mübahisələrlə bağlı arbitraj məhkəməsinə müraciət etmək hüququ yoxdur. Beləliklə, mövcud olmayan hüququn məhdudlaşdırılmasını iddia etmək əsassızdır.

[3] ICC case No 4367

[4] Case No 132/2004 (Russian seller v. Turkey buyer) (2005)

## II. Tərəflər arasında bağlanmış Podrat Müqaviləsinə əsasən İddiaçının öhdəliyin icrasının gecikdirilməsinə görə Cavabdehin məsuliyyət daşıyaraq zərərin əvəzini ödəməsi ilə bağlı tələbi əsassızdır.

1. İddiaçı bildirmişdir ki, Cavabdeh öz vəzifələrini nəzərdə tutulmuş müddətdə yerinə yetirmədiyinə görə bu, müqavilə üzrə nəzərdə tutulmuş öhdəliklərin icrasının gecikdirilməsi hesab edilməli, bununla da maddi məsuliyyət daşımalıdır. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra "Mülki Məcəllə") 445.1-ci maddəsinə əsasən icranı gecikdirmiş borclu gecikdirmə nəticəsində vurduğu zərər üçün kreditor qarşısında məsuliyyət daşıyır. Öhdəliyin hansı halda gecikdirilmiş hesab edildiyi hal isə Mülki Məcəllənin 445.2.1-ci maddəsində qeyd edilmişdir: "Öhdəliyin onun icrası üçün müəyyənləşdirilmiş müddətdə icra edilməməsi". Hazırkı Podrat Müqaviləsinin 2.2-ci bəndinə nəzər yetirsək, görürük ki, burada sözügedən otelin tikilmə mərhələlərinin ardıcıllığı cədvəli, habelə həmin mərhələlər üzrə ödənişlərin həyata keçirilməsindən ibarət Plan əks olunmuşdur, lakin Planda qeyd olunan mərhələlərin tamamlanması müddəti ilə bağlı hər hansı göstəriş yoxdur. Müqavilənin 1.1-ci bəndində isə göstərilir ki, Podratçı 3 (üç) il ərzində oteli inşa edərək Sifarişçiyə təhvil vermək vəzifəsini öz üzərinə götürür. Bu o deməkdir ki, Tərəflər arasındakı Podrat Müqaviləsində Mülki Məcəllənin 432-ci maddəsinin də yol verdiyi şəkildə öhdəlik hissə-hissə icra edilməsi tələbi olsa da, hər bir hissə üçün ayrı vaxt kəsiyi müəyyən edilməmişdir, ümumilikdə, öhdəliyin icrası üçün sadəcə olaraq 3 il müddət tələbi qoyulmuşdur.

2. Bununla yanaşı, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin öhdəliyin icrasının gecikdirilməsi ilə bağlı Plenum Qərarında bilavasitə göstərilir ki: "*icranın borclu tərəfindən gecikdirilməsinin yolverilməzliyi birbaşa olaraq kreditora zərər dəyməsi ilə əlaqədardır*".[5] Teleoloji təfsir (ratio legis) metodundan istifadə edərək bu qənaətə gəlmək olar ki, öhdəliyin icrasının gecikdirilməsi halında qarşı tərəfə dəymiş və (ya) dəyəcək zərər özünü büruzə verməlidir.[6] Lakin işin faktiki hallarına nəzər yetirərkən şahidi oluruq ki, 10 iyul 2019-cu ildə bağlanılmış Podrat Müqaviləsi üzrə öhdəliyin icrası üçün 3 illik müddət müəyyənləşdirilsə də, İddiaçı tərəf 15 may 2022-ci il tarixində göndərilmiş elektron poçtda işlərin tamamlanmış vəziyyətdə olmalı olduğunu vurğulamış, bu səbəbdən ona zərər dəydiyini güman etmişdir.

[5] Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Mülki Məcəlləsinin 399.3, 399.4,445 və 449-cu maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" Plenum Qərarı (24.12.2014)
[6] F. Mehdiyev, Hüquq Nəzəriyyəsi, 85 (2018)

Halbuki Müqavilə üzrə podratçı qismində Cavabdehin hələ 10 iyul 2022-ci ilə qədər işləri yekulaşdırmalı idi, bu səbəbdən də Mülki Məcəllənin 327.1-ci maddəsinin tələbinə müvafiq olaraq İddiaçının müddət çatanadək icranı tələb etmə hüququ yox idi. Ona görə də İddiaçıya öhdəliyinin icrasının gecikdirilməsi ilə bağlı hər hansı bir zərərin dəyməsindən söhbət gedə bilməz.

3. Eyni zamanda İddiaçı Cavabdehin mülki qanunvericilikdə nəzərdə tutulan vicdanlılıq prinsipinə zidd hərəkət etdiyini iddia etməsi hüquqi baxımdan əsasa malik deyil. Belə ki, Mülki Məcəllənin 425.1-ci maddəsinə əsasən öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflərdən hər biri vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və bu Məcəllənin tələblərinə müvafiq surətdə hərəkət etməlidir. Burada vicdanlılıq obyektiv mənada şərh edilməli, yəni eyni şəraitdə və şərtlər daxilində istənilən normal şəxsin öhdəliyin məzmunundan çıxış edərək həyata keçirməli olduğu hərəkətləri nəzərdə tutur.[7] Bu baxımdan Podrat Müqaviləsi üzrə nəzərdə tutulan müddətdən daha tez bir vaxtda öhdəliyin icra edilməməsi vicdanlılıq prinsipinin pozulması hesab edilə bilməz, çünki eyni şərait və şərtlər daxilində adi şəxsin belə bir öhdəliyi yoxdur. Nəticə etibarilə, İddiaçı tərəfindən irəli sürülnən "öhdəliyin icrasının gecikdirilməsinə görə Cavabdehin məsuliyyət daşımalıdır" tələbi hüquqi baxımdan əsassız hesab edilərək təmin edilməməlidir.

*A. Cavabdeh öhdəliyin icrasını müqaviləyə uyğun həyata keçirdiyi üçün İddiaçı həm real zərərin, həm də əldən çıxmış faydanın əvəzini tələb etməyə haqlı deyil.*

1. İddiaçı Arbitraj Bildirişində vurğulamışdır ki, Podrat müqaviləsi üzrə işləri gecikdirdiyinə görə əmək haqqı və digər xərclər qismində 500 000 ABŞ dolları həcmində real zərər və 2 500 000 ABŞ dolları həcmində əldən çıxmış fayda olmaqla, Cavabdeh tərəfindən ödənilməlidir. Məsələ ilə bağlı öncəliklə Mülki Məcəllənin 443.1-ci maddəsinə istinad etmək lazımdır. Belə ki, həmin maddədə göstərilir ki, əgər öhdəliyini icra etməsə, borclu tərəf dəymiş zərərin əvəzini ödəməlidir. Bu zaman zərər dedikdə Mülki Məcəllənin 21-ci maddəsindəki hüququ pozulmuş şəxsin hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər - real zərər, habelə hüququ pozulduğu üçün adi mülki dövriyyə şəraitində əldə edə biləcəyi, lakin məhrum olduğu

---

[7] S. Süleymanlı, Mülki Hüququn Əsasları, 395 (2019)

gəlirlər - əldən çıxmış fayda başa düşülür. Sözügedən maddələr işin hallarına tətbiq olunarkən Mülki Məcəllənin 442-ci maddəsindəki definitiv norma - "öhdəliyin icra edilməməsi dedikdə onun pozulması və ya lazımınca icra edilməməsi - vaxtında icra edilməməsi, işlərin qüsurlarla və ya digər şərtləri pozmaqla icra edilməsi başa düşülməsi" nəzərə alınmalıdır. Belə ki, qeyd olunduğu kimi Podrat Müqaviləsinə əsasən öhdəliyin icrası üçün müddət başa çatmadığına görə "lazımı icra"nın olmamasından söhbət gedə bilməz. Nəticə etibarilə, çəkilmiş və ya çəkiləcək xərclərin, habelə məhrum olduğu gəlirlərin ödənilməsi tələbi ilə mövcud olmayan ziyan arasında səbəbli əlaqə qurmaq qeyri mümkündür.[8]

2. Eyni zamanda Cavabdeh tərəfindən görülən işin keyfiyyəti baxımından da hər hansı bir qüsurla bağlı İddiaçı tərəf öz etirazını bildirməmişdir. Tərəflər arasındakı Podrat Müqaviləsinin 1.1-ci bəndində Podratçının bu Müqavilənin 1 saylı Qoşmasında göstərilən tələblərə cavab verən oteli inşa edərək Sifarişçiyə təhvil vermək vəzifəsinin olduğu göstərilsə də, həmin tələbləri özündə ehtiva edən Qoşma mövcud deyil. Bununla bərabər, praktikada müqavilələrin tərkib hissəsi sayılan və müqavilənin predmeti ilə bağlı xüsusiyyətləri özündə əks etdirən Qiymətlərin Razılaşdırılması Protokolu da olmaması Podrat Müqaviləsində görüləcək işin keyfiyyəti ilə bağlı şərtin olmadığını deməyə əsasə verir. Bu zaman Mülki Məcəllənin 436-cı maddəsinə, habelə UNIDROIT Prinsiplərinin 5.1.6-cı maddəsinə müvafiq olaraq keyfiyyət müqavilədə müfəssəl müəyyənləşdirilmədiyinə görə, borclu tərəf ən azı orta keyfiyyətli iş görməlidir. Bu zaman digər amillərin - məsələn, bazar qiyməti ilə müqayisədə yuxarı və yaxud aşağı qiymətdə işin görülməsi və s. keyfiyyət müəyyənləşdirilməsində rolu nəzərə alınmalıdır.[9] İşin hallarından məlum olduğu kimi Cavabdeh otelin inşası üçün İddiaçıya normal bazar qiymətindən 20 faiz ucuz qiymət təklif etmiş və Tərəflər razılaşmışdılar, bu səbəbdən Cavabdehdən daha üstün keyfiyyətli iş tələb etmək əsassızdır. Eyni zamanda Cavabdehin orta keyfiyyətdən aşağı iş təqdim etdiyi ilə bağlı hər hansı əsaslı sübut da İddiaçı tərəfindən göstərilməmişdir.

3. Bunlarla yanaşı, İddiaçı Mülki Məcəllənin 347.7-ci maddəsinə istinad edərək Cavabdeh tərəfin təcrübəsi, texnikası, ümumilikdə onunla bağlı lazımı məlumatlara sahib olmadan müqavilə imzalamasını vacib əhəmiyyətli yanılmanın təsiri ilə müqavilə imzalama hesab edilməli olduğunu bildirmişdir. Nəticədə etibarilə, yanılmanın digər tərəfin təqsiri üzündən əmələ gəldiyini sübuta yetirdiyini zənn edərək ona dəymiş real zərərin əvəzinin ödənilməsini tələb edir. Məsələ ilə bağlı öncəliklə qeyd edilməlidir ki, Mülki Məcəllənin 347-ci maddəsində vacib

[8] B. Əsədov, Azərbaycan Respublikası Mülki Məcəlləsinin Elmi-Praktiki Kommentariyası, 100 (2017)
[9] Beynəlxalq Kommersiya Müqavilələrinin UNIDROIT Prinsiplərinin Kommentariyası, 160 (2022)

əhəmiyyətli yanılma hallarından biri kimi kontragentin şəxsiyyəti barəsində yanılma qeyd edilmişdir və bu o zaman vacib sayılır ki, əqdin bağlanması üçün kontragentin şəxsiyyəti və ya şəxsi keyfiyyətlərinin nəzərə alınması başlıca əsas olmuşdur. İddiaçı da məhz bu müddəaya əsaslanmış və qeyd edir ki, Cavabdehin bu işləri görmək üçün heç bir resursu və təcrübəsi olmadığı halda ona yanlış məlumat verildiyi üçün yanılmışdır. Halbuki İddiaçı tərəfin Cavabdehin bu sahədəki təcrübəsinin və səriştəsinin olmaması, layihəni lazımi səviyyədə icra edə bilməyəcəyi ilə bağlı hər hansı bir sübutu yoxdur. Hətta Podrat Müqavilə bağlanıldıqdan 22 gün sonra - 1 avqust 2019-cu ildə İddiaçı tərəf Cavabdehin bənzər layihələrinin, lazımı avadanlıqların olub-olmaması barəsində sorğu göndərmiş, Cavabdeh isə artıq müqavilə bağlanıldığı üçün belə öhdəliyi olmasa da, bunu anlayışla qarşılayıb 4 avqust 2019-cu ildə görüş keçirmişdir. Hətta bu görüşün nəticəsi kimi İddiaçının əlavə olaraq Alğı-satqı müqaviləsi bağlamaq üçün layihə hazırlaması artıq onun Cavabdehlə bağlı məlumatlara şübhə duymadığına işarə edir. Nəticədə, İddiaçı Mülki Məcəllənin 347.4-cü maddəsindəki sözügedən yanılma halına məruz qalmamışdır. Bununla yanaşı, işin faktlarında başqa yanılma hallarına rast gəlinmir və Məcəllənin həmin maddəsində əks olunan hallardan başqa bir halın vacib əhəmiyyətli yanılma hesab edilmədiyini nəzərə alaraq İddiaçının belə bir tələbi əsassız hesab edilməlidir.[10]

4. Həmçinin İddiaçı "Əsaslı tikintidə podrat müqavilələri haqqında" Qaydaların 2.3-cü maddəsinə istinad edərək bildirmişdir ki, podratçı olmaq iddiasında olanlar, bütün potensial sifarişçilərə ixtisaslaşma səviyyəsi, maliyyə, maddi imkanları haqqında məlumatlar göndərməlidirlər. Ancaq bu Qaydaların həmin bəndində bilavasitə qeyd olunur ki, belə məlumatlar sadəcə olaraq Sifarişçiyə ona münasib olan podratçıların seçilməsinə və gələcək podrat müqavilələrinin bağlanmasına imkan verir. Yəni ki, göstərilən məlumatlar Sifarişçinin seçim hüququ ilə birbaşa əlaqəli olub müqavilə bağlanılmamışdan əvvəlki mərhələyə aid edilir və Sifarişçinin sorğusu əsasında Podratçı tərəfindən təqdim edilir. Hazırkı işin hallarından isə göründüyü kimi İddiaçı bu məlumatların verilməsini 10 iyul 2019-cu ildə Podrat Müqaviləsinin bağlanılmasından sonra - 1 avqust 2019-cu ildə Cavabdehdən tələb etmişdir, lakin müqavilə artıq bağlanıldığından, habelə bu müqavilə üzrə hər hansı əlavə sənəd təqdim etmək öhdəliyi daşımadığından Cavabdeh qeyd edilən məlumatları özündə əks etdirən sənədləri İddiaçıya verməmişdir.

[10] İ. Əsgərov, Azərbaycan Respublikası Mülki Məcəlləsinin elmi-praktik kommentariyası, I cild, 596 (2014)

5. Qeyd olunanları nəzərə alaraq bu nəticəyə gəlinir ki, Cavabdeh öz öhdəliyinin icrasını müqaviləyə zidd şəkildə həyata keçirməmişdir, bu səbəbdən İddiaçı real zərərin, habelə əldən çıxmış faydanın əvəzini tələb edə bilməz.

*B. Podrat Müqaviləsi üzrə bildirişlərin təqdim olunmaması halı İddiaçının zərərin əvəzini tələb etmək hüququndan məhrum olmasına əsas verir.*

1. Mülki Məcəllənin 390.1-ci maddəsinə əsasən fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və mülki qanunvericiliyə zidd olmayan müqavilə məzmunu müəyyənləşdirə bilərlər. Müqavilə azadlığının məzmununu formalaşdıran elementlər sırasına hüquq subyektinin seçdiyi kontragentlə müqavilə bağlamaq, onun növü və formasını, habelə bağlanan müqavilənin şərtlərini, o cümlədən müvafiq qiymətləri müəyyən etmək azadlığını aid etmək olar.[11] Eyni zamanda Mülki Məcəllənin 6.2-ci maddəsində qeyd edilir ki, Tərəflər müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə və qanunvericiliyə zidd olmayan hər hansı müqavilə şərtləri qoymaqda sərbəstdirlər. Hazırkı Podrat Müqaviləsinin 4.1-ci bəndinə nəzər yetirsək, görürük ki, Tərəflər "Sifarişçinin tələb hüququnu müəyyən şərtə bağlayan" müddəanı Müqaviləyə əlavə etmişlər, bu zaman hər hansı etiraz olmamışdır. Həmin bənddə qeyd edilir ki: "*Müqavilə üzrə digər Tərəf hər hansı öhdəliyini pozarsa, Tərəf belə pozuntunu bildiyi və ya bilməli olduğu andan 28 gün ərzində digər Tərəfə bildiriş verməlidir. Əgər bildiriş vermirsə, pozuntu ilə bağlı bütün hüquqlarını itirir və bununla bağlı ödəniş tələb edə bilməz, digər Tərəf isə məsuliyyətdən azad olunur*".
2. İşin faktiki hallarında da vurğulandığı kimi İddiaçı Müqavilənin bağlanmasından 3 ay sonra Cavabdehə bildiriş göndərək 9 oktyabr 2019-cu il tarixində tikinti sahəsinə keçirilən baxış zamanı prosesdə "ləngimə"nin olduğunu əsas gətirərək ona zərər vurulduğunu bildirmişdir. Lakin İddiaçı Podrat Müqaviləsinin 4.3-cü bəndinə müvafiq olaraq bildiriş verdikdən sonra 20 gün ərzində Cavabdeh tərəfə sübutlar və xüsusatları ilə birlikdə iddia təqdim etməmişdir. Bundan sonra Cavabdeh 10 iyul 2021-ci ildə Müqavilədə nəzərdə tutulan tikintinin 1-ci mərhələsini tamamlayaraq İddiaçıya hesabat təqdim etmişdir, bu zaman qarşı tərəfdən görülən işin keyfiyyəti ilə bağlı da hər hansı etiraz olmamışdır. Ancaq hesabatın təqdimatından 10 ay keçdikdən sonra İddiaçı Cavabdehə elektron poçt göndərərək işin gedişatından, habelə

[11] Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 6.2, 390.1 və 390.5-ci maddələrinin şərh edilməsinə dair" Plenum Qərarı (18.12.2023)

keyfiyyətindən narazı olduğunu, nəticədə ona zərər dəydiyini bildirmişdir. Halbuki İddiaçı Müqavilə ilə şərtləşdirilmiş müddətə əməl etmədiyi üçün Mülki Məcəllənin 550.1-ci maddəsində qeyd olduğu kimi tələb hüququnu itirir.

3. Bununla yanaşı, sözügedən məsələ ilə bağlı İddiaçının hərəkəti *"estoppel"* prinsipinə zidd hesab edilməlidir. Belə ki, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 26 aprel 2023-cü il tarixli Qərarında göstərilir ki, bu prinsip tərəflərə öz hərəkətləri və ya davranışı ilə şübhəsiz və mübahisəsiz qəbul etmiş olduğu hallara sonradan istinad etməsini istisna edir.[12] UNIDROIT Prinsiplərinin 1.8-ci maddəsində də qeyd olunduğu kimi əgər müqavilə üzrə bir tərəf digərini müvafiq situsiyada müəyyən hərəkətin ediləcəyinə və yaxud edilməyəcəyinə inanmağa vadar edərsə və digər tərəf buna arxalanarsa, birinci tərəf həmin davranışa zidd hərəkət edə bilməz.[13] İşin hallarından göründüyü kimi Cavabdeh işin müvafiq mərhələsinin tamamlanması ilə bağlı hesabat təqdim edərkən əmin idi ki, əgər kontragent İddiaçının işlə bağlı narazılığı olarsa, tez bir zaman ərzində bunu Cavabdehə bildirəcək. Çünki 10 oktyabr 2019-cu il tarixində bildiriş İddiaçıya müvafiq hal ona məlum olduqdan düz 1 gün sonra göndərilmişdir. Analoji halı 10 iyul 2021-ci il tarixli hesabatın göndərildiyi vaxta da aid etsək, İddiaçı narazılığı olduğu təqdirdə hesabatdakı məlumatlar ona məlum olduğu üçün tez bir vaxtda bildiriş göndərməli idi. Bu baxımdan İddiaçını hesabatın təqdimatından 10 ay sonra Cavabdehə narazılığını bildirməsi "estoppel" prinsipinin mahiyyətinə zidd hesab edilməlidir.

4. Əlavə olaraq, İddiaçının Müqavilənin 3.2-ci bəndinə əsasən Podratçı tərəfindən göstərilən xidmətlərin gedişatı və keyfiyyəti ilə maraqlanmaq hüququ olsa da, o bu hüquqdan məqsədyönlü şəkildə - Cavabdehə zərər vurularaq mənfəət əldə etməsi məqsədi ilə istifadə etməmişdir. Lakin işin müvafiq hissəsinin tamamlanıb hesabatın verildiyindən 10 ay sonra - 15 may 2022-ci ildə bu hüququndan istifadə edərək etirazını bildirmişdir, bu isə mülki qanunvericilikdə əks olunan *"hüquqdan sui-istifadə"* hesab edilməlidir. Belə ki, Mülki Məcəllənin 560.1-ci maddəsində qeyd olunur ki, hüquqdan yalnız başqalarına ziyan vurmaq məqsədi ilə istifadə edilməsi yolverilməzdir. Eyni zamanda bu maddə Məcəllənin 5.3-cü maddəsində əks olunan "hamı öz haqlarını vicdanla həyata keçirməlidir" ifadəsi ilə birgə tətbiq edilməlidir - yəni ki, hüquqdan sui-istifadə vicdansız davranışa bərabər tutulacaq.[14] Məcəllənin

[12] Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 18 iyul 2022-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" Qərarı (26.04.2023)

[13] Yuxarı istinad 6, 21

[14] Yuxarı istinad 4, 432

560.3.4-cü maddəsində hüquqdan sui-istifadə qismində “digər tərəfin güvəndiyi və güvənmiş olduğu əvvəlki rəftara zidd hüququn həyata keçirilməsi” halı da nəzərdə tutulmuşdur. Hazırkı işin hallarında da göstərilir ki, Podrat Müqaviləsi üzrə Cavabdeh öz öhdəliklərini yetirdiyi müddətdə işin gedişatı ilə maraqanmamış, hətta hesabat təqdim edildikdən sonra belə işin kefyiyyətinin müəyyənləşdirilməsi ilə bağlı hər hansı addım atmamışdır. Bununla da Cavabdeh əmin idi ki, görülən işlərin keyfiyyəti, habelə gedişatı ilə əlaqədar hər hansı qüsur yoxdur. Nəticə etibarilə, İddiaçının qəsdən işin gedişatı, həmçinin keyfiyyətlə bağlı məlumat almamağı, hesabat təqdim edildikən xeyli uzun müddət sonra bildiriş göndərərək öz hüququnu realizə etməyə çalışması “hüquqdan sui-istifadə” və vicdansız davranış hesab edilməlidir.

5. Bütün qeyd olunanları nəzərə alaraq hesab edilməlidir ki, zərərin olduğu təqdirdə belə, İddiaçı Müqavilə ilə müəyyənləşdirilmiş müddət ərzində bildiriş göndərmədiyi üçün zərərin əvəzinin ödənilməsini tələb etmə hüququndan məhrumdur, bununla da hər hansı ödəniş tələb edə bilməz.

*C. Cavabdeh Podrat Müqaviləsi üzrə şərtləşdirilmiş şəkildə öhdəliyini yerinə yetirdiyinə görə İddiaçı ödənilmiş avansın geri qaytarılmasını tələb edə bilməz.*

1. İddiaçı bildirmişdir ki, Cavabdeh işləri (tam) icra edə bilmədiyindən görülmüş işlərin real dəyəri olan 300 000 ABŞ dolları vəsaiti çıxılmaqla, Podrat müqaviləsi üzrə ödənmiş 2.000.000 ABŞ dolları həcmində avans məbləğindən 1.700.000 dollar İddiaçıya geri qaytarılmalıdır. Məsələyə aydınlıq gətirmək üçün öncəliklə avansın daşığıdığı funksiyanı müəyyən etmək lazımdır. Belə ki, Mülki Məcəllə avansla bağlı konkret nizamlama müəyyən etməsə belə, Azərbaycan Respublikasının Ali Məhkəməsinin 2021-ci il tarixli Qərardadında avansla bağlı bir sıra məsələlərə toxunulur. Burada göstərilir ki, avans gələcəkdə alınacaq mal və ya göstəriləcək xidmətlərin dəyərinin əvvəlcədən qismən pul şəklində ödənilmiş məbləğidir.[15] Eyni zamanda “Dövlət satınalmaları haqqında” Qanunun 40-11-ci maddəsində də qeyd olunur ki, podratçı avans ödənişindən yalnız müqavilə ilə bağlı öhdəliklərin yerinə yetirilməsi üçün istifadə etməlidir. Hüquqi ədəbiyyatda isə göstərilir ki, əsas müqavilə öhdəliyi icra olunmadıqda avansın ödəmə funksiyası itir, yalnız bu halda avans onu verən tərəfə geri qaytarılmalıdır.[16]

[15] Azərbaycan Respublikasının Ali Məhkəməsinin “Mülki qanunvericiliyin lizinq müqaviləsinə dair münasibətləri tənzimləyən bəzi normalarının tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsinə dair” Qərardadı (04.06.2021)

[16] İ. Əsgərov, Azərbaycan Respublikası Mülki Məcəlləsinin elmi-praktik kommentariyası, II cild, 771 (2015)

2. Hazırkı işin faktlarına nəzər yetirsək, şahidi oluruq ki, Cavabdeh tərəflərin ümumi razılığı ilə Podrat Müqaviləsi üzrə öhdəliklərini hissə-hissə icra edir və Müqavilənin 2.2-ci bəndinə əsasən İddiaçı tərəfindən verilən avans məhz birinci mərhələnin tamamlanmasına - ərazinin tikinti üçün hazırlanması və binanın bünövrəsinin tökülməsinə sərf olunacaq. Cavabdeh tərəfindən 10 iyul 2021-ci ildə İddiaçıya verilmiş hesabat məhz avansın verildiyi həmin işin hissəsi ilə bağlı idi. Tərəflər arasındakı Podrat Müqaviləsində müqavilə predmeti ilə bağlı hər hansı keyfiyyət göstəriciləri də nəzərdə tutulmadığından Cavabdeh Mülki Məcəllənin 762.2-ci maddəsində də əks olunduğu kimi işin həmin hissəsini adi istifadə üçün yararlı vəziyyətdə olacaq bir şəkildə icra etmişdir, bu baxımdan qüsursuz hesab edilməlidir. Eyni zamanda Cavabdeh tərəfindən görülən işin keyfiyyəti baxımından da hər hansı bir qüsurla bağlı İddiaçı tərəf öz etirazını bildirməmişdir.

3. Bununla yanaşı, Mülki Məcəllənin 759.1-ci maddəsinə əsasən sifarişçi işlər qurtaranadək istənilən vaxt müqavilədən imtina edə bilər, lakin podratçıya yerinə yetirilmiş işin haqqını verməli, habelə müqavilənin ləğvi ilə vurulan zərərin əvəzini ödəməlidir. Hətta <u>Məcəllənin 759.2-ci maddəsində də qeyd edilir ki sifarişçi tərəfindən müqaviləyə bilavasitə podratçının hərəkətləri (hərəkətsizliyi) nəticəsində baş verən səbəbə görə xitam verilərsə, podratçı yenə də yerinə yetirilmiş işin haqqını tələb edə bilər, o şərtlə ki, sifarişçinin həmin işlərə hansısa marağı olsun.</u> İşin hallarından aydın olur ki, müvafiq işin görülməsi ilə bağlı hesabatın təqdim olunması zamanı İddaçı hər hansı bir etiraz etməmişdir. Lakin sonradan - hesabatın təqdim olunmasından 10 ay sonra, 15 may 2022-ci ildə İddiaçı bildiriş göndərərək həmin tarixə qədər işlər tamamlanmalı olduğunu vurğulayaraq "gecikmə" olduğunu bildirmiş, bununla da görülmüş işlərə marağı qalmadığını qeyd etmişdir. Halbuki Podrat Müqaviləsinin 1.1-ci bəndi üzrə Cavabdeh 3 il ərzində işi tamamlama öhdəliyi götürmüş, o səbəbdən həmin müddət 10 iyul 2022-ci ildə bitməli idi və həmin müddət bitməyənə qədər heç bir gecikmədən söhbət gedə bilməz. Nəticə etibarilə, İddiaçının görülən işə marağının itməsi ilə bağlı hər hansı əsaslı sübut gətirilmədiyinə görə İddiaçı təqdim edilmiş işləri qəbul etməlidir.

4. Qeyd olunanları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, podratçı qismində Cavabdeh avans ödənişindən müqavilə ilə bağlı öhdəliyini yerinə yetirilməsi üçün istifadə etdiyinə və bu işləri təhvil verdiyinə görə İddiaçının avansın geri qaytarılması ilə bağlı tələbi əsassızdır.

**III. Tərəflər arasında bağlanılan Alğı-satqı müqaviləsi çərçivə müqaviləsi olduğuna görə hər hansı öhdəlik nəzərdə tutulmamışdır, bu səbəbdən də İddiaçı Cavabdehdən əldən çıxmış faydanın dəyərini ödəməsini tələb etməyə haqlı deyildir.**

1. İddiaçı öz Arbitraj bildirişində iddia edir ki, Cavabdeh 10 avqust 2019-cu il tarixində bağlanmış Alğı-satqı Müqaviləsinin 1.1-ci maddəsinə müvafiq olaraq, Podrat müqaviləsi ilə bağlı tikinti işlərində istifadə edilməsi üçün idxal edilməli olan bütün malları, o cümlədən 5.000.000 ABŞ dolları dəyərində xüsusi ölçmə cihazları, havalandırma sistemi, elektrik avadanlıqları və digər malları təhvil alınaraq haqqının ödənilməsi öhdəliyini öz üzərinə götürsə də, yalnızca 15 oktyabr 2019-cu il tarixində 100 000 USD dəyərində sifariş verib və bu səbəbdən də 25% marja əsas götürülərək 1.250.000 ABŞ dolları dəyərində əldən çıxmış fayda ödənilməlidir. Məsələ ilə bağlı öncəliklə qeyd olunmalıdır ki, Mülki Məcəllənin 390.1-ci maddəsində nəzərdə tutulmuş müqavilə azadlığı prinsipinə əsasən, fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə və Mülki Məcəllədə nəzərdə tutulmayan, lakin ona zidd olmayan müqavilələr də bağlaya bilərlər. Bu baxımdan hazırda mübahisə predmeti olan alğı-satqı müqaviləsi isə mahiyyəti etibarilə çərçivə müqaviləsi hesab edilməsi tamamilə məqbuldur, çünki Azərbaycan Respublikasının mülki qanunvericiliyində bu cür müqavilələrin bağlanmasını qadağan edən hər hansı hüquq norması nəzərdə tutulmayıb.

2. Belə ki, nəzəriyyədə və praktikada formalaşmış definisiyaya əsasən çərçivə müqaviləsi tərəflər arasında uzunmüddətli münasibətin əsası qoyulduqda hər dəfə eyni şərtli yeni müqavilələrin bağlanması zərurətinin qarşısının alınması üçün bağlanan müqavilə formasıdır.[17] Həmçinin Rusiya Mülki Məcəlləsinin 429.1-ci maddəsində qeyd olunur ki, çərçivə müqaviləsinə müvafiq olaraq, tərəflər gələcəkdə bu müqavilədəki şərtləri əsas götürərək gələcəkdə əmlakın verilməsi, işlərin görülməsi və ya xidmətlərin göstərilməsi haqqında müqavilə bağlamaqla bağlı razılığa gəlirlər. Hazırki Alğı -satqı müqaviləsinin 1.2-ci bəndində göstərilir ki, Malların dəqiq çeşidi və növləri Tərəflər arasında Alıcı tərəfindən sifarişin verilməsi və Satıcı tərəfindən onun təsdiq edilməsi ilə razılaşdırılacaq. Bunu həmçinin müqavilənin 2 və 3-cü maddələrinin bəndlərində malların təsviri, təhvil-təslimi, qiyməti ilə əlaqədar hər hansı spesifik qayda müəyyən edilməməsindən də sezmək mümkündür. Beləliklə, müqavilənin predmetinin yalnız ümumi şəkildə müəyyən edilməsi, malların alğı-satqısı üçün xüsusi müddətlərin əvvəlcədən müəyyən edilməməsi müqavilənin çərçivə müqaviləsi olduğunu deməyə əsas verir.

[17] European Commission, Explanatory Note – Framework Agreements – Classic Directive (16.02.2016)

3. Alğı-satqı müqaviləsinin 10.4-cü maddəsinə əsasən, həmin Müqavilə təfsir edilərkən Podrat Müqaviləsinin şərtləri də nəzərə alınmalıdır. Podrat müqaviləsinin 1.1-ci maddəsinə əsasən, Podratçı 3 (üç) il ərzində oteli inşa edərək Sifarişçiyə təhvil verməyi öz üzərinə götürür. Mülki Məcəllənin 432.1-ci maddəsinə əsasən, əgər kreditor razıdırsa, borclu öhdəliyi hissə-hissə icra edə bilər. Müqavilənin 2-ci bəndinə əsasən, tərəflərin bu cür hissə-hissə icraya razılıq verdiyini görmək mümkündür. Lakin planda göstərilən hissələr üçün isə ayrıca icra müddəti müəyyən edilməyib. Əsas öhdəliyin icrası ilə bağlı tək müddət 3 illik ümumi müddətdir və Mülki Məcəllənin 427.1-ci maddəsinə əsasən, əgər öhdəliyin icrası müddəti təyin edilibsə, kreditor müddət çatanadək onun icrasını tələb edə bilməz. Eyni zamanda Alğı-satqı müqaviləsinin 1.1-ci maddəsində malların alınmasının məqsədi qismində tikinti işlərində istifadə edilməsi göstərilir, yəni ki, alğı-satqının həyata keçirilməsi üçün müəyyən tikinti işləri görülməlidir. Halbuki müqavilənin predmeti hissəsində qeyd olunan malların alınmasını zəruri edəcək icra mərhələsinə hələ çatılmamışdır.

4. Beləliklə, tikinti işlərinin hissə-hissə həyata keçirilməsi ilə bağlı müddət nəzərdə tututlmadığından, yalnız ümumi 3 illik müddət nəzərdə tutulduğundan və bu qayda alğı-satqı müqaviləsinə də tətbiq edildiyindən, iddiaçı podrat müqaviləsi üzrə öhdəliklərin icrasını 3 il əvvəldən tələb edə bilmədiyi kimi, alğı-satqı müqaviləsinin icrasını da öhdəliyin ümumi icra müddəti bitməmiş və podrat müqaviləsi icra olunmamış tələb edə bilməz. Nəticə olaraq, Cavabdeh tərəfindən alğı-satqı müqaviləsi üzrə hər hansı öhdəliyi pozulmamışdır. “Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında” BMT Konvensiyasının 74-cü maddəsinin şərhində göstərilmişdir ki, Satıcının fəaliyyət göstərdiyi ərazi üzrə ümumi mənfəət marjası satıcının zərərə - əldən çıxmış faydaya görə iddiasını müəyyən etmək üçün əsas yaradır.[18] Öhdəliyin pozulmadığına əsasən də hər hansı bir zərər - əldən çıxmış fayda mövcud olmadığına görə mənfəət marjasının tətbiqindən söhbət gedə bilməz.

5. Bununla yanaşı, İddiaçı 15 oktyabr 2019-cu il tarixində qeyd edilən sifarişi vermiş və 100 000 USD dəyərində ödənişi həyata keçirmişdir. Beləliklə də Alğı-satqı müqaviləsi üzrə öhdəliyinin bir hissəsini artıq həyata keçirmişdir. Mülki Məcəllənin 21.2-ci maddəsinə əsasən, zərər dedikdə hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən

[18] Digest of Case Law on the United Nations Convention on Contracts for the International Sale of Goods, 336 (2016)

çıxmış fayda) başa düşülür. Məhkəmə İddiaçının hüququnun pozulmuş olduğunu hesab etsə belə, həmin pozuntu öhdəliyin artıq icra edilmiş və İddiaçı tərəfindən hər hansı etirazla üzləşməmiş hissəsinə münasibətdə hər hansı hüququ pozulmadığından istisna edilməlidir. Əlavə olaraq, iddiaçı artıq müqavilə nəticəsində malın alıcıya satılmasından 100 000 USD gəlir əldə etdiyindən ona ödənilə biləcək istənilən miqdarda zərərdən həmin məbləğ çıxılmalıdır.

## IV. Hazırki mübahisə üzrə pul öhdəliyi mövcud olmadığından, həmçinin olduğu təqdirdə belə, Cavabdeh tərəfindən icra olunduğuna görə Mərkəzi Bankın uçot faiz dərəcələri tətbiq oluna bilməz.

1. İddiaçı Arbitraj bildirişində bildirmişdir ki, zərər üçün ödənilməli bütün vəsait üzrə Azərbaycan Respublikası qanunvericiliyinə əsasən Mərkəzi Bankın uçot faiz dərəcəsi ilə faizi Cavabdeh tərəfindən ödənilməlidir. Məsələ ilə bağlı Hazırki iş üzrə nəzər salmalı olduğumuz iki müqavilə var: a) 10.07.2019-cu il tarixində İddiaçı və Cavabdeh arasında bağlanmış Podrat müqaviləsi; b) 10.08.2019-cu il tarixində İddiaçı və Cavabdeh arasında bağlanmış Alğı-satqı müqaviləsi. Lakin iş üzrə dəyərləndirməli olduğumuz və öncəki arqmuentlərdə də qeyd edildiyi kimi əsas xüsusat budur ki, Cavabdeh İddiaçıya hər iki Müqavilə üzrə doğan münasibətlərdən uçot faizinin tətbiq olunmasına əsas verən heç bir zərər vurmamışdır.
2. Öncəliklə vurğulanmalıdır ki, Mülki Məcəllənin 449.1-ci maddəsi nəzərdə tutur ki, faizlər yalnız özgəsinin pul vəsaitini qanunsuz saxlamaqla, onu qaytarmaqdan boyun qaçırmaqla, onun ödənilməsini digər şəkildə gecikdirməklə və ya başqa şəxsin hesabına pul vəsaitini əsassız əldə etməklə və ya toplamaqla ondan faydalanmağa görə ödənilməlidir. Azərbaycan Repsublikası Konstitusiya Məhkəməsinin Plenumunun məsələ ilə bağlı qərarına nəzər yetirsək görərik ki, “ondan faydalanmağa görə” müddəası Mülki Məcəllənin 152.3-cü maddəsində göstərilmiş gəlirin, artımın, bəhərin və ya sair maddi xeyirin əmələ gəlməsini nəzərdə tutur.[19]

[19] Azərbaycan Repsublikası Konstitusiya Məhkəməsinin Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449-cu maddəsinin bəzi müddəalarının şərh olunmasına dair” Qərarı (09.07.2009)

Hazırki işin faktlarına istinad edərkən isə şahidi oluruq ki, qeyd olunan hallardan heç biri baş verməmişdir.

3. Belə ki, Podrat Müqaviləsi üzrə tərəflərin öhdəlikləri aşağıdakı kimidir: a) Cavabdeh 3 il ərzində tikərək İddiaçıya təhvil verməli; b) İddiaçı bunun əvəzində xidmət haqqını Cavabdehə ödəməli idi. Müqavilənin 3.2.-ci maddədə göstərilmiş öhdəliklərin xarakterindən də göründüyü kimi, Podrat müqaviləsi üzrə Cavabdehin heç bir pul öhdəliyi yoxdur. Bu səbəblərdən də, bu Müqavilə üzrə İddiaçı tərəfindən ona dəyməsi iddia olunan zərərin üzərinə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 449.1-ci maddəsinə uyğun qaydada faizlər müəyyənləşdirilə bilməz. Belə pul öhdəliyi yalnız o halda yarana bilərdi ki, tərəflər arasında müqavilə bağlandığı anda Cavabdehin belə bir pul öhdəliyi yaranardı. Həmçinin, İddiaçı hesab edir ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 439.3-cü maddəsinə əsasən, iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanmalıdır. Lakin İddiaçı bu hissədə də yanılır, çünki yenə həmin maddənin 1-ci cümləsində deyilir: *"...Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda,..".* Hal-hazırda Cavabdeh üçün Podrat müqaviləsi üzrə nəinki hər hansı borc məbləği, hətta heç bir pul öhdəliyi yaranmamışdır. Buna görə də, İddiaçının istinad etdiyi bu müddəa tətbiq edilə bilməz.

4. Eyni zamanda Cavabdeh Planda nəzərdə tutulmuş ödənişlərdən yalnız avansı - 2.000.000 ABŞ dolları əldə etmişdir və bu avansdan ancaq tikinti işlərinin 1-ci mərhələsinin tamamlanması üçün istifadə edərək İddiaçıya hesabat vermişdir. Nəticə etibarilə Mülki Məcəllənin 449.1-ci maddəsində əks olunan normadakı hər hansı bir "faydalanma halı" olmadığı üçün Cavabdehin pul vəsaitindən fayda götürdüyünü iddia edərək uçot dərəcəsinin tətbiq edilməsini tələb etməsi əsassızdır.

# Tələblər

**I. Alğı-satqı müqaviləsindən əmələ gələn mübahisə üzrə işə arbitrajda baxıla bilər, lakin Podrat müqaviləsi və Zaminlik müqaviləsinə münasibətdə arbitrajın səlahiyyəti olmadığından bu müqavilələrdən yaranan mübahisəyə Arbitraj Məhkəməsində baxılmamalıdır..**

Belə ki, Alğı-satqı müqaviləsində mübahisənin arbitrajda baxılmalı olduğu aşkar surətdə əks olunmuşdur. Lakin bundan fərqli olaraq, Podrat müqaviləsində və Zaminlik müqaviləsində arbitraj bəndi olmadığına görə, elektron poçt məktubuna isə Cavabdeh tərəfindən reaksiya verilmədiyinə, həmin arbitraj bəndinə uyğun hər hansı addım atılmadığına görə bu müqavilələr üzrə işə arbitrajda baxıla bilməz. Eyni zamanda Zaminlik Müqaviləsi əslində özü də müstəqil bir əqd kimi səciyyələndirildiyi üçün Alğı-satqı müqaviləsindəki arbitraj bəndi onu əhatə edə bilməz.

**II. Tərəflər arasında bağlanmış Podrat Müqaviləsinə əsasən İddiaçının öhdəliyin icrasının gecikdirilməsinə görə Cavabdehin məsuliyyət daşıyaraq zərərin əvəzini ödəməsi ilə bağlı tələbi əsassızdır.**

Tərəflər arasındakı Podrat Müqaviləsində Mülki Məcəllənin 432-ci maddəsinin də yol verdiyi şəkildə öhdəlik hissə-hissə icra edilməsi tələbi olsa da, hər bir hissə üçün ayrı vaxt kəsiyi müəyyən edilməmişdir, ümumilikdə, öhdəliyin icrası üçün sadəcə olaraq 3 il müddət tələbi qoyulmuşdur. Nəticə etibarilə, İddiaçı tərəfindən irəli sürülnən “öhdəliyin icrasının gecikdirilməsinə görə Cavabdehin məsuliyyət daşımalıdır” tələbi hüquqi baxımdan əsassız hesab edilərək təmin edilməməlidir. Həmçinin zərərin olduğu təqdirdə belə, İddiaçı Müqavilə ilə müəyyənləşdirilmiş müddət ərzində bildiriş göndərmədiyi üçün zərərin əvəzinin ödənilməsini tələb etmə hüququndan məhrumdur, bununla da hər hansı ödəniş tələb edə bilməz.

**III. Tərəflər arasında bağlanılan Alğı-satqı müqaviləsi xarakter baxımından çərçivə müqavilə hesab olunmalı olduğuna görə burada hər hansı öhdəlik nəzərdə tutulmamışdır, bu səbəbdən də İddiaçı Cavabdehdən əldən çıxmış faydanın dəyərini ödəməsini tələb etməyə haqlı deyildir.**

Alğı-satqı müqaviləsinin 10.4-cü maddəsinə əsasən, həmin Müqavilə təfsir edilərkən Podrat Müqaviləsinin şərtləri də nəzərə alınmalıdır və burada göstərilir ki, öhdəliyin icrası üçün 3 illik müddət təyin edilib. Mülki Məcəllənin 427.1-ci maddəsinə əsasən, əgər öhdəliyin icrası müddəti

təyin edilibsə, kreditor müddət çatanadək onun icrasını tələb edə bilməz. Eyni zamanda Alğı-satqı müqaviləsinin 1.1-ci maddəsində malların alınmasının məqsədi qismində tikinti işlərində istifadə edilməsi göstərilir, yəni ki, alğı-satqının həyata keçirilməsi üçün müəyyən tikinti işləri görülməlidir. Halbuki müqavilənin predmeti hissəsində qeyd olunan malların alınmasını zəruri edəcək icra mərhələsinə hələ çatılmamışdır. Həmçinin Satıcının fəaliyyət göstərdiyi ərazi üzrə ümumi mənfəət marjası satıcının zərərə - əldən çıxmış faydaya görə iddiasını müəyyən etmək üçün əsas yaradır.[20] Öhdəliyin pozulmadığına əsasən də hər hansı bir zərər - əldən çıxmış fayda mövcud olmadığına görə mənfəət marjasının tətbiqindən söhbət gedə bilməz

## IV. Tərəflər arasında baş vermiş mübahisə üzrə hər hansısa bir pul öhdəliyi mövcud olmadığına görə, hətta olduğu təqdirdə belə, Cavabdeh tərəfindən Müqavilənlərin şərtlərinə uyğun lazımı icra həyata keçirildiyinə görə Mərkəzi Bankın uçot faiz dərəcələri tətbiq oluna bilməz.

Hal-hazırda Cavabdeh üçün Podrat müqaviləsi üzrə nəinki hər hansı borc məbləği, hətta heç bir pul öhdəliyi yaranmamışdır. Buna görə də, İddiaçının faizlə bağlı istinad etdiyi Mülki Məcəllənin 449.1-ci maddəsi tətbiq edilə bilməz. Eyni zamanda Cavabdeh aldığı ödənişləri məhz Müqavilə üzrə nəzərdə tutulan iş üçün istifadə etdiyinə görə hər hansı bir "faydalanma halı" olmadığı üçün Cavabdehin pul vəsaitindən fayda götürdüyünü iddia edərək uçot dərəcəsinin tətbiq edilməsini tələb edə bilməz.

## V. İddiaçının arbitraj və hüquqşünas xərclərinin Cavabdeh tərəfindən ödənilməsi tələbi hüquqi əsasa malik deyil.

UNCITRAL Qaydalarının 42-ci maddəsinə əsasən, arbitraj xərcləri, prinsip etibarı ilə, arbitrajda uğursuz olmuş tərəf tərəfindən çəkilir. Ancaq arbitraj tribunalı xərcləri tərəflər arasında uyğun gördüyü qaydada bölə bilər. Xərclərin kimin tərəfindən çəkilməsinə qərar vermək arbitrajın səlahiyyətində olduğu üçün bu tələblə bağlı heç bir əlavə rəyimiz yoxdur.

[20] Digest of Case Law on the United Nations Convention on Contracts for the International Sale of Goods, 336 (2016)

# Arbitraja müraciət

Yuxarıda qeyd olunan faktiki halları nəzərə alaraq və qeyd edilən hüquq normalarına əsaslanaraq Arbitraj tribunalından

## XAHİŞ EDİRİK:

1. Hazırkı Podrat və Zaminlik müqavilələri ilə bağlı mübahisəyə Arbitraj Tribunalında baxılmasın.
2. Tərəflər arasında bağlanmış Podrat Müqaviləsinə əsaəsn, İddiaçının öhdəliyin icrasının gecikdirilməsinə görə Cavabdehin məsuliyyət daşıyaraq zərərin əvəzini ödəməsi ilə bağlı tələbi əsassız hesab edilsin.
3. Tərəflər arasında bağlanılan Alğı-satqı müqaviləsi xarakter baxımından çərçivə müqavilə hesab olunmalı olduğuna görə burada hər hansı öhdəlik nəzərdə tutulmamışdır, bu səbəbdən də İddiaçı Cavabdehdən əldən çıxmış faydanın dəyərini ödəməsini tələb etməyə haqlı hesab edilməsin.
4. Tərəflər arasında baş vermiş mübahisə üzrə hər hansısa bir pul öhdəliyi mövcud olmadığına görə, hətta olduğu təqdirdə belə, Cavabdeh tərəfindən Müqavilənlərin şərtlərinə uyğun lazımı icra həyata keçirildiyinə görə Mərkəzi Bankın uçot faiz dərəcələri tətbiq edilməsin.
5. İddiaçının arbitraj və hüquqşünas xərclərinin Cavabdeh tərəfindən ödənilməsi tələbi təmin edilməsin.